# Azərbaycan regional sülhün əsas təminatçısıdır



***Vətən müharibəsində Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan şanlı Qələbə milli mücadilə tariximizin ən parlaq səhifələrindən biridir. Torpaqlarımız erməni işğalından azad olunub və 30 ilə yaxın davam edən Qarabağ münaqişəsinə son qoyulub. Beləliklə, Ermənistanın işğal və onun legitimləşdirilməsi üzərində qurulmuş ideoloji təməlləri məhv edilib. Bu gün üçrəngli bayrağımız Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı, Şuşa, Ağdam, Kəlbəcər və Laçında qürurla dalğalanır, müharibənin vurduğu yaralar sağaldılır, şəhər və kəndlərimiz bərpa olunur, ərazilər minalardan təmizlənir.***

Böyük Zəfər, ilk növbədə, dövlət başçımızın diplomatik uğuru, ordumuzun qəhrəmanlığı və xalqımızın ordu və dövlətlə birliyi sayəsində əldə edilib. Müstəqil xarici siyasətimizin məhz milli maraqlara əsaslanması, regionda təhlükəsizlik və əməkdaşlığa bu günümüzün və sabahımızın prizmasından yanaşılması diplomatiya aləmində Azərbaycanın mövqelərinin möhkəmlənməsinə vəsilə olub. Biz mübarizədə haqlı olduğumuzu tarixi və geosiyasi faktlarla əsaslandıra, dünyanı haqq işimizi dəstəkləməyə yönəldə bilmişik. BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri, ərazi bütövlüyümüzün əksəriyyət tərəfindən tanınması kimi amillər Qarabağda azadlıq mücadiləmizin məhvərini təşkil edib. Azərbaycan Avropa İttifaqı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı ilə münasibətlərini yüksək səviyyədə qura bilib. Özü də bu münasibətlər ehtimallar üzərində yaranmayıb, praqmatizm, qarşılıqlı fayda və maraqlara əsaslanıb.

Azərbaycan Prezidenti ötən həftə ADA Universitetində "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda keçirilən beynəlxalq konfransda bütün bunları dünyanın tanınmış intellektual təbəqə təmsilçilərinin diqqətinə yüksək diplomatik məharətlə çatdırdı, ölkədə, regionda və dünyada gedən prosesləri geniş şərh etdi, Ermənistanın işğalçılıq siyasətinin, revanşist mövqeyinin obyektiv təhlilini verdi. Konfrans iştirakçıları dövlət başçımızın güclü məntiqə söykənən fikirlərinə heyranlıqlarını gizlətmədilər. Etiraf edək ki, akademik çevrələrdə populyar olan, sualların alt qatında çoxlu mənalar gizlənən mahir diplomatları əhatəli və konstruktiv cavablarla razı salmaq elə də asan məsələ deyil. Cənab İlham Əliyev bundan əvvəl də beyin mərkəzlərinin nümayəndələri, xarici media mənsubları qarşısında parlaq çıxışları ilə özünün kreativ düşüncəli lider, yüksək intellektə, məlumatlılıq səviyyəsinə və dərin analitik təfəkkürə malik siyasətçi olduğunu dəfələrlə nümayiş etdirib. Elə ötən ilin aprelində ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda eyni məramlı foruma bu il də, özü də öncə Qarabağda toplaşmaq ideyası məhz yenidən Azərbaycan Prezidenti ilə hər yöndən faydalı ünsiyyətdə olmaq, onun aktual məsələlərə özəl yanaşmalarından bəhrələnmək istəyinin ifadəsi olub.

Bu konfransın daha bir özəlliyi mədəniyyət paytaxtımız Şuşanı həm də diplomatik paytaxta çevirmək məramıdır. Bildiyimiz kimi, ötən ilin noyabrında Azərbaycan və Rusiya politoloqlarının iştirakı ilə Şuşada beynəlxalq konfrans keçirilib. Ayrı-ayrı akademik təsisatlar, nazirliklər də orada mötəbər tədbirlər təşkil edirlər. "Shusha Majlis Discussion" formatında beynəlxalq beyin mərkəzləri nümayəndələrinin bu konfransda iştirak etmək üçün Şuşaya yollanmaları, onları aparan "Ağdam" adlı təyyarənin Qarabağın hava qapısında – bu yaxınlarda tikilmiş Füzuli Beynəlxalq Hava Limanında yerə enməsi özlüyündə qürur doğuran faktdır. Forum çərçivəsində 20-dən çox ölkəni təmsil edən 50-yə yaxın siyasi ekspert postmünaqişə dövründə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində, o cümlədən Şuşada infrastrukturun bərpasını müzakirə edib. Həmçinin regionda dayanıqlı sülhün bərqərar edilməsi və regional kommunikasiyaların açılması imkanları nəzərdən keçirilib. Onu da deyək ki, artıq bir neçə gündən sonra bu şəhərin 270 illiyinə həsr olunan "Azərbaycanın elm və mədəniyyət mərkəzi – Şuşa" mövzusunda digər bir beynəlxalq elmi konfransın təşkil ediləcəyi ilə bağlı anonslar da verilib.

Forum iştirakçıları da gördülər ki, işğaldan azad edilən ərazilərimizdə erməni vandalları illərlə hansı vəhşi əməlləri törədiblər. Bu, hər addımda nəzərə çarpır. Prezident İlham Əliyevin ADA Universitetində konfrans çərçivəsində çıxışında qeyd etdiyi kimi, viran qoyulan şəhər və kəndlər, dağıdılan, təhqir edilən məscid və qəbiristanlıqlar, Yer üzündən silinən tarix və mədəniyyət abidələri düşmənin nə qədər amansız və barbar olduğunu göstərir. Əlbəttə, "vəhşi qəbilə" bütün dağıntıları məqsədli şəkildə edib, azərbaycanlıların bu torpaqlara əzəli sahibliyinin izlərini silmək məqsədi güdüb. Vaxtaşırı Qarabağa səfərləri təşkil olunan xarici diplomatlar da, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri də, media təmsilçiləri də bütün bunların canlı şahidləridir. Qarabağda törədilənlərdən şoka düşən əcnəbilərdə kimin dağıdıcı, kimin qurucu və yaradıcı xalq olduğu barədə dəqiq qənaətlər formalaşıb.

Erməni tarixinin atası sayılan Movses Xorenasi yazmışdır: "Mən xalqımızın daşürəkliyini və yekəxanalığını göstərmək istəyirəm. Erməni həqiqəti inkar etməyi xoşlayır. Ermənilər böyük-böyük danışmağı sevən ikiüzlü millətdir". Bu kimi xarakteristikaları erməni şairi Yegişe Çarens də, rus yazıçısı və diplomatı Aleksandr Qriboyedov və tədqiqatçı Nikolay Şavrov da, fransız yazıçısı Aleksandr Düma (ata) və başqaları da veriblər. Ermənilərin yalnız mənfi impulslarla yaşamasının xroniki olduğu gün kimi aydındır. Biz bunu onların tarixən törətdiyi terror cinayətləri bir yana, Qarabağın işğal altında olduğu illərdə daim görmüşük. Hələ Vətən müharibəsindən əvvəl də Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərdən təmas xəttinə yaxın yaşayış məntəqələrini beynəlxalq konvensiyalar tərəfindən qadağan edilmiş bomba və raketlərlə atəşə tuturdular. Xatırlayırıq ki, 2016-cı il aprel ayında cəbhə bölgəsinə səfər edən xarici jurnalistlər də məlum hadisələrin fonunda erməni vandalizmini öz gözləri ilə görmüş və bu barədə təmsil etdikləri media vasitələrində reportajlar vermişdilər. Vətən müharibəsi zamanı isə düşmən tərəfindən Gəncədə, Tərtərdə, Bərdədə mülki obyektlərin və dinc əhalinin hədəfə alınması, ən azı, heç vəchlə bəşəri dəyərlərlə bir araya sığmayan cinayətlərdir.

Prezident İlham Əliyev ADA Universitetində beynəlxalq konfransda sualları cavablandırarkən deyib: "Şəxsən özüm də vəhşilikləri və barbarlığı heç zaman yaddan çıxarmayacağam. Çıxara bilməyəcəyəm və yaddan çıxarmaq da istəmirəm. Çünki biz bunu xatırlamalıyıq. Çünki bu, faciəli tariximizin bir hissəsidir.

Eyni zamanda, biz yadda saxlamalıyıq və hər zaman özümüzü müdafiə etməyi bacarmalıyıq. Lakin, eyni zamanda, sülh gündəliyimiz ictimai dəstək olmadan həyata keçirilə bilməz. Biz, həmçinin anlayırıq ki, İkinci Qarabağ müharibəsindən sonra erməni cəmiyyətinin də yaraları var. Bunu başa düşmək olar. Əgər yaralarımız otuz ilə sağalmadısa, bilirik ki, onların da yaraları qanlı qalacaq. Bu, reallıqdır. Lakin nə etmək olar?! Biz məsuliyyəti öz üzərimizə götürməliyik və ölkələrə rəhbərlik edən liderlər məsuliyyəti eyni olaraq qəbul etməlidirlər. İnsanları inandırmağa çalışmalıdırlar ki, maraqlarımız, strateji gələcəyimiz naminə bizə sülh gərəklidir".

Daha sonra dövlət başçısı bildirib ki, tarixi zəfər Azərbaycan cəmiyyətində xüsusi ab-hava yaradıb və milli birliyi daha da gücləndirib: "Əgər belə demək mümkünsə, gördüyümüz işlərlə insanların reaksiyası arasında daim əlaqə var. Biz planlarımızla əlaqədar xalqla məsləhətləşirik. Məsələn, şəhərlərin yenidən qurulmasına gəldikdə, Ağdam və Füzulinin baş planları həmin rayonların tanınmış nümayəndələrinin iştirakı ilə təsdiqlənib, çünki onlar orada yaşayacaqlar. Buna görə də cəmiyyət gördüyümüz işlərə böyük etimadla yanaşır. Bu, hər zaman belə olub".

Müsbət meyil sayıla biləcək bir faktdır ki, bu gün Ermənistan rəhbərliyi də, bu ölkənin nisbətən ağıllı başları da uydurulan ideoloji konsepsiyalarının darmadağın edildiyini görərək, ərazi iddialarından həqsiz olduqlarını zəif səslə də olsa, etiraf edirlər. Onlar Azərbaycanla sülh danışıqlarına getməyin vacibliyini anlamağa başlayır və məhvə doğru gedən dövlətçiliklərinin xilası naminə cari reallıqlara uyğun addımlar atmaq istəyirlər. Yəni "buz"un tərpəndiyi müşahidə olunur. İşğalçı ölkənin baş naziri Nikol Paşinyan hökumətin iclasında Qarabağın statusu ilə bağlı "plankanı aşağı salmağa" (tələbləri azaltmağa) çağırışlar səsləndirib. Onun sözlərinə görə, 1996-cı ildə ATƏT-in Lissabon sammitində, 1999-cu ildə "vahid dövlət ideyası"nda, 2001-ci ildə Ki-Uest prosesində, 2007-ci ildə irəli sürülən Madrid prinsiplərində və 2016-cı ildə həmsədrlərin təkliflərində də status tələbinə önəm verilməyib. Sadəcə olaraq, bu faktlar erməni cəmiyyətindən məharətlə gizlədilib.

Artıq ermənilər də dərk edirlər ki, Prezident İlham Əliyevin həyata keçirdiyi fəal diplomatik səylər, qalib Azərbaycanın diktə etdiyi reallıqlar dünyada birmənalı qəbul olunur. Onlar indi özlərinin "xilas resept"lərinin İlham Əliyevdə olduğunu görürlər. Amma burası da var ki, tədricən müsbətə meyillənən Paşinyan və tərəfdarlarını vaxtilə Ermənistanda hakimiyyətdə olmuş hərbi xunta rəhbərləri Koçaryan və Sarkisyanın müxalif fraksiyaları dinc qoymur, istefa tələbli kütləvi mitinqlər keçirməklə aranı qatırlar. Buna baxmayaraq, əksəriyyət artıq dirəniş göstərməyin mənasız olduğu qənaətindədir. Bu, erməni ictimaiyyətinin sosial şəbəkə seqmentlərində, post və statuslarında özünün aydın ifadəsini tapır.

Ermənilərin bizim qarşımızda üzləri qaradır. Otuz ilədək işğal altında saxladıqları ərazilərdə olmazın vəhşiliklər törədiblər. Hətta köçüb gedəndə də evləri yandırıb, ağacları baltalayıb, hər tərəfə minalar basdırıb gediblər. Quruculuq naminə nəsə etmək əvəzinə, Ağdamı Xirosimaya çevirib, Oxçuçayı yaman günə qoyub, Füzulidə salamat bina saxlamayıb, əkinəyararlı torpaqlarda narkotika plantasiyaları salıb, təmas xəttinin bu üzündəki dinc Azərbaycan kəndlilərinin əkinbiçininə maneələr yaradıblar. Təkcə müsəlman dini ocaqlarını deyil, xristian məbədlərini də dağıdaraq bizi qeyri-tolerantlıqda günahlandırmaq istəyiblər. Amma bu riyakarlıqları ifşa olunub, özləri çətin duruma düşüblər. Bütün bunların fonunda Ermənistan son 30 ildə qlobal kommunikasiya layihələrindən kənarda qalmaqla, sözün əsl mənasında, özünə qəsd edib. Qəflət yuxusundan indi-indi ayılan qarşı tərəf günahlarının bədəlini bütün ciddiliyi ilə ödəyəcəyindən ürpənərək, deyəsən, düzgün yola gəlmək istəyir. Əlbəttə, biz səhvləri bağışlayan, heç olmasa, bundan sonra ermənilərlə normal qonşuluq münasibətləri zəminində yaşamağa üstünlük verən, humanizm prinsiplərinə söykənən böyük ürəkli xalqıq. Təki, tövbə istəklərində səmimi olsunlar, indən belə məkrli addımlar atmasınlar.

Prezident İlham Əliyev siyasi ekspertlərin, tədqiqatçı alimlərin diqqətinə təkzibedilməz, konkret faktlarla çatdırdı ki, bəli, indiyədək Ermənistanın sərgilədiyi siyasətdə neqativ notlar daha çox olub. İstər Zəngəzur dəhlizinin açılması, istər sərhədlərin delimitasiya və demarkasıyası, istər Qarabağda qalmış silahlı dəstə tör-töküntülərinin oradan çıxarılması, istərsə də digər prinsipial məsələlərdə Paşinyan hökuməti yarıtmaz mövqe tutub. Ancaq indi onların son şansdan istifadə edərək, bir qədər pozitivə meyil göstərdiyi görünməkdədir. Qoy, yanlışlarından ibrət götürsünlər, müəyyən qədər bağışlanmalarına ümidləri olsun. Baxaq, görək özlərini necə aparacaqlar. Sonra isə, necə deyərlər, ağa da durur, ağacan da. Onsuz da örkən bizim əlimizdədir, "dəmir yumruq" yerindədir.

Beynəlxalq konfrans bir daha göstərdi ki, siyasi platformada hadisələrin necə cərəyan etməsindən asılı olmayaraq, Azərbaycan rəhbərliyi Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərini genişləndirməkdə, "Böyük Qayıdış"ı yaxınlaşdırmaqdadır. Bununla bağlı tədbirlər dəqiq müəyyənləşdirilmiş strateji istiqamətlərə və tapşırıqlara uyğun olaraq həyata keçirilir. Minalardan təmizləmə, enerji təminatı və xüsusilə də "yaşıl enerji" layihələri, şəhərsalma və nəqliyyat infrastrukturunun inkişafı üzrə planlar, "ağıllı kənd" konsepsiyasının tətbiqi ardıcıl surətdə gerçəkləşdirilir. Ermənilərin Laçın şəhərindən keçmədən ötüb gedəcəkləri 28 kilometrlik alternativ yolun tikintisi özünün son mərhələsindədir. Digər rayonları bir-birinə birləşdirəcək yolların, körpülərin, tunellərin inşası sürətlə gedir, su xətləri çəkilir, müasir yaşayış kompleksləri tikilir. Yüzlərlə hektar sahədə yaşıllıqlar salınır və "Zəfərdən dirçəlişə" meşə massivi layihəsi icra olunur...

Sonda vurğulamaq lazımdır ki, əsas məqsədi postmünaqişə dövründə Cənubi Qafqaz ölkələri arasında əlaqələrin inkişafı, bölgənin tərəqqisi, təhlükəsizliyi və rifahının təməli kimi Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması üçün sülh gündəliyini sərf-nəzər etməkdən ibarət olan beynəlxalq forum dövlətimizin diplomatik uğurları sırasında layiqli yerini tutmuşdur.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***